## Memarlıq

Dağlar qoynunda Şuşa əsrlərin yadigarı olan gözəl memarlıq abidələri ilə zəngindir. Şuşa özü boyda canlı abidədir. Sahəsi 234 kvadrat kilometr olan Şuşa şəhəri dünyanın nadir incisidir. Şuşanın hər qarış torpağı, daşı canlı tarixdir, təbii panoramadır.

Şuşa özünün memarlıq abidləri ilə də məşhurdur. Yarandığı gündən başlayaraq şəhərdə müdafiə tikliləri ilə yanaşı, çoxlu yaşayış evləri, imarətlər, saraylar, hamamlar, karvansaralar və məscidlər tikilib istifadəyə verilmişdir. Şuşada fəaliyyət göstərən çoxsaylı mühəndislər, memarlar, bənnalar, daşyonanlar, dülgərlər, nəccarlar, həkkaklar və başqa sənətkarlar şəhərin tikintisi zamanı Azərbaycan, Şərq və Qərb memarlığının nailiyyətlərindən məharətlə bəhrələnmişlər. Elə bunun nəticəsi idi ki, Şuşa öz görkəmi ilə Cənubi Qafqazın digər şəhərlərindən əsaslı şəkildə fərqlənirdi.



*Qaraböyük xanımın qəsri. Rəssam V. Vereşşagin. 1865*

Qarabağ xanları Şuşada **saray və imarətlərin** tikintisinə böyük diqqət yetirirdilər. Qarabağ tarixçilərinin məlumatlarından aydın olur ki, həm Pənahəli xan, həm də İbrahimxəlil xan Şuşada özləri və övladları üçün altı saray və imarət tikdirmişdi. Bu saraylardan ikisi - Pənahəli xana və Qaraböyük xanıma məxsus saraylar müasir dövrə qədər qalmışlar. Sonuncu sarayın giriş qapısı üzərindəki yazıdan aydın olur ki, həmin saray 1768-ci ildə, İbrahimxəlil xanın hakimiyyəti dövründə tikilmişdir. Bu rəsmlərin əksəriyyətinin müəllifləri məşhur rəssam və memar Qəmbər Qarabaği və onun qardaşı Səfər olmuşdur.



*Mehmandarovların imarəti*

XIX əsrin ikinci yarısında Şuşanın sürətlə inkişafı burada tikinti-abadlıq işlərinin miqyasını xeyli artırmışdı. Şəhərin varlı adamlarına məxsus dəbdəbəli yaşayış evlərinin, imarətlərin tikintisi geniş vüsət almışdı. Kərim bəy Mehmandarovun, Hacı Məmmədovun, İsgəndər Rüstəmovun, Səfibəyovun və başqalarının bu dövrdə inşa edilmiş imarətləri özlərinin orijinal memarlıq üslublarına və zəngin divar rəsmlərinə görə diqqəti cəlb edirdi. 1864-1865-ci illərdə Şuşada olmuş məşhur rus rəssamı V. Vereşşagin yazırdı: “Şuşanın bir çox varlı evlərinin divar və tavanları, əsasən, döyüş səhnələrini, hökmdarların və qədim nağıl qəhrəmanlarının portretlərini əks etdirən kompozisiyalar və süjetli rəsmlərlə bəzədilmişdir.”


*Azərbaycanlı evi. Rəssam V. Vereşşagin. 1865*

Şuşanın memarlıq abidələri içərisində onun **bulaqları** xüsusi yer tuturdu. Şuşanın əhalisi uzun müddət özünün içməli suya olan tələbatını hər bir həyətdə qazılmış quyular vasitəsilə ödəyirdi. Şəhərin su probleminin həll edilməsində xan qızı Xurşidbanu Natəvanın böyük xidməti olmuşdur. 1871-ci ildə onun vəsaiti hesabına Şuşanın 7 kilometrliyində yerləşən Xəlfəli dağından saxsı borularla şəhərə su çəkilmiş və iki böyük bulaq tikilmişdi. “Xan qızı bulağı” adlanan bu bulaqlardan biri Xurşidbanu Natəvanın evi qarşısında tikilmişdi. “Şor bulaq” adlanan ikinci bulaq şəhərin Gəncə qapısı yaxınlığında tikilmiş və orijinal kompozisiyaya məxsus milli naxışlarla bəzədilmişdi. 1896-cı ildə Şuşaya ikinci su kəməri çəkilmişdi. Bu kəmər şəhər sakinlərinin içməli suya olan tələbatını ödəməklə yanaşı, 20-dən artıq küçədə daş çarhovuzların, bulaqların və yeni hamamların tikilməsinə, eləcə də şəhərin daha da yaşıllaşmasına şərait yaratmışdı.


*Xan qızı bulağı*

Şuşa şəhərində tikilmiş **hamamlar** orijinal memarlıq üslubuna görə şöhrət qazanmışdı. Hamamlara bəzək vurulması zamanı müxtəlif növ kaşılardan, rəngarəng şüşə və mərmərdən geniş istifadə olunurdu. Şuşada ilk hamamı İbrahimxəlil xanın əmisi oğlu Əbdüsəməd bəy tikdirmişdi. Sonralar Şuşa hamamlarının sırasına Aşağı bazar deyilən yerdə inşa edilmiş Uğurlu bəy hamamı, Mirzəli hamamı və başqaları da əlavə olunmuşdu. Ümumiyyətlə, XVIII-XIX əsrlərdə Şuşada 20-yə qədər hamam tikilib istifadəyə verilmişdi. Əsl mənada gözəl istirahət guşələri olan Şuşa hamamları Azərbaycanda bu sahədə olan memarlıq ənənələri əsasında tikilmişdi.

Şuşanın memarlıq abidələri içərisində **karvansaralar** xüsusi yer tuturdu. Şuşada ilk karvansara Təbrizli məhəlləsində inşa edilmişdi. Daha sonra Aşağı bazar və Meydan deyilən yerlərdə karvansaralar tikdirib istifadəyə verilmişdi. Bu karvansaralar Şuşanın bazar kompleksinin əsas tikililərindən hesab olunurdu. XIX əsrin sonlarına yaxın şəhərdə 10 karvansara fəaliyyət göstərirdi. Onların arasında Hacı Abbas, Qatırçı Murad, Şeytan bazar, Xanlıq Muxtar, Mirsiyab oğlu, Xan qızı karvansaraları xüsusilə seçilirdilər.



*Xurşidbanu Natəvana məxsus karvansara*

1970-ci illərin sonları, 1980-ci illərin əvvəllərində Zöhrabbəyovun və Hacı Qulunun imarətləri, qədim qala divarları bərpa edilmiş, Vaqifin, Natəvanın, Nəvvabın və başqa tarixi şəxsiyyətlərin ev muzeyləri açılmışdı. Bu dövrdə Ü. Hacıbəyovun ev muzeyində yenidənqurma işləri aparılmış, Natəvanın evinin qarşısında şairin heykəli qoyulmuşdu. Bəhs etdiyimiz illərdə Şuşada Şor bulaq, Meydan, Hamamqabağı məhəlləsinin bulaqları, Saatlı məhəlləsindəki məscid, keçmiş realnı məktəbinin binası bərpa olunmuşdur. 1982-ci il yanvarın 14-də Şuşa şəhərinə gələn Heydər Əliyev M. P. Vaqifin yerli mərmərdən tikilmiş 20 metr hündürlüyündə olan əzəmətli məqbərəsinin açılışında iştirak etmişdi.

Dünya ictimaiyyətində özünün "əzabkeş", "humanist" obrazını yaratmağa çalışan ermənilər 1992-ci ildə Şuşa şəhərini ələ keçirdikdən sonra onun tarixi-memarlıq abidələrinə qarşı vandallıq etmişlər. Şuşanın bir çox tarixi-memarlıq abidələri dağıdılmış və yandırılmışdır.

2020-ci il noyabrın 8-də Şuşa işğaldan azad edildikdən sonra ermənilərin şəhərdəki azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrinə qarşı vandal münasibət göstərdikləri aşkar olmuşdur. 2021-ci il yanvarın 15-də Şuşada səfərdə olarkən Prezident İlham Əliyev ailə üzvləri ilə birlikdə şəhərdəki memarlıq abidələrini ziyarət edərkən demişdir: ***"Bu gün Şuşaya gələrkən 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərimizin – Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini gətirmişəm. Bu yerdə Mədəniyyət Evi yerləşirdi və Üzeyir bəyin, Bülbülün büstləri məhz bu yerdə qoyulmuşdu. Mənfur düşmən Şuşa Mədəniyyət Evini dağıdıb və dahi şəxsiyyətlərimizin büstlərini güllələbaran edib."***



*Abidələr öz yerlərində bərpa olunur*




*Vaqifin məqbərəsi bərpa edilir*

Həmin gün Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstləri Şuşada öz əvvəlki yerlərinə qaytarıldı.

Dövlət başçısı demişdir: ***“Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Şuşanı erməniləşdirmə cəhdlərinə son qoyulub. Otuz il onlar çalışırdılar ki, Şuşanı erməniləşdirsinlər, nail ola bilmədilər. Bu, onlar üçün yad şəhərdir, öz şəhəri saysaydılar, bu günə qoymazdılar. Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!”***

Şuşadakı bütün memarlıq abidələrinin tezliklə bərpası üçün Prezident İlham Əliyevin verdiyi tapşırıqlar icra olunur. Şuşadakı azərbaycanlılara məxsus tarixi-memarlıq abidələri ilə yanaşı, XIX əsrin əvvəllərində şəhərin rus qoşunları tərəfindən işğal edilməsindən sonra Naxçıvanın Qazançı kəndindən köçüb gələn ermənilərin məskunlaşdıqları məhəllədə inşa edilən və 44 günlük İkinci Qarabağ müharibəsi zamanı zədələnən Qazançı kilsəsi də təmir edilib. Bu, azərbaycanlılara məxsus maddi-mədəni irsə vandal münasibət göstərən, onları yer üzündən silməyə çalışan Ermənistandan fərqli olaraq, Azərbaycanın bütün dinlərə xoşgörü və tolerant münasibətinin bariz nümunəsidir.

**Şuşa qalası**

Şuşa qalasının salınmasının tarixi haqqında bu layihənin “Tarix” fəslinin “Ümumi məlumat” və “Xanlıqlar dövrü” bölmələrində yığcam məlumat verilmişdir. Bu bölmədə isə qalanın hərbi-istehkam tikilisi kimi əhəmiyyətindən, onun coğrafi mövqeyindən və memarlıq xüsusiyyətlərindən bəhs edəcəyik.



*Şuşa qalasının planı. 1830*

Şuşa şəhəri üç tərəfdən sıldırım qayalarla və dərələrlə dövrələnmişdir. Ona görə də qala divarları yalnız şimal tərəfdən inşa edilmişdir.

Qalanın böyük strateji üstünlüyə malik olmasını göstərən cəhətlərdən biri də divarlar inşa edilən zaman artilleriya qurğularından

istifadənin nəzərə alınması idi. Məhz buna görə, istər XVIII əsrin ikinci yarısında, istərsə də XIX əsrin birinci rübündə Şuşa alınmaz qala olduğunu, mühüm müdafiə sisteminə malik olduğunu göstərib. XIX əsrdə qalanın yenidən qurulması və möhkəmləndirilməsi nəticəsində onun ilkin görünüşü qismən dəyişdirilib, ona yeni müdafiə qüllələri əlavə olunmuşdur.



*Qalanın içindən şimal-şərq hissəsinin müasir görünüşü*

Şuşa qalasının tikintisi üçün seçilmiş ərazi sıx meşə ilə və sıldırım yarğanlarla əhatə olunmuşdu. Qalanın inşa edildiyi ərazi amfiteatr formasına malik dağ yaylasıdır. Yaylanın ən hündür sahəsi dəniz səviyyəsindən 1600 m, ən aşağı sahəsi isə 1300 m hündürlüyə malikdir. Bu yüksək dağlıq yaylanın çevrəsi Daşaltı və Xəlfəli çaylarının yataqlarına enən dərin uçurumlarla əhatə edilib.



*Şuşa qalasının bürcləri*

Yayla qərbdə yüksəkliyə dirənir. Onun bir qanadı cənuba çataraq Cıdır düzünə keçir.

Şuşa qalasının inşası zamanı memarlar yerli relyefi əsas götürmüşlər və bu, şəhərin XIX əsrdə çəkilmiş planlarından da

aydın görünür. Şuşa qalasının döyüş qüllələri divarların səthindən xeyli qabağa çıxır, bəzi halda isə demək olar ki, onlardan kənarda inşa edilib ki, bu da divarların yaxşı müdafiə olunmasını təmin edir.

Şuşanın müdafiə divarları daş və əhəng məhlulundan inşa edilməklə 2.5 km uzunluğa malikdir.



*Qala divarları*

Təməlqoyma dövründən XIX əsrin ortalarına kimi, Şuşa qalasında fasiləsiz yenidənqurma və genişləndirmə işləri aparılmışdır. Pənahəli xanın vəfatından sonra onun oğlu İbrahimxəlil xan atası tərəfindən başladılan inşaat işlərini davam etdirmişdir. Onun hakimiyyəti dövründə (1759–1806) və Qarabağ xanlığının Rusiya imperiyasına ilhaq edilməsindən sonra da Şuşa qalasının möhkəmləndirilməsi işləri davam etdirilmişdir.

Qarabağ xanlığının süqutundan sonra da Şuşa qalası mühüm müdafiə sistemi rolunu oynamağa davam etmişdir. Yeni rus administrasiyası qalanın müdafiə sisteminin möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Həmin dövrdə bir çox yerlərdə Şuşa qalasının müdafiə divarları dağılmış, bir hissəsi isə yerli sakinlər tərəfindən sökülmüş və ev inşası üçün daşları daşınmış, xəndəklər isə demək olar ki, dolmuşdu.

XIX əsrdə qalanın yenidənqurulması və möhkəmləndirilməsi zamanı onun ilkin görünüşü qismən dəyişdirilmiş, ona yeni müdafiə qüllələri əlavə edilmişdir.

**Qala qapıları**

Şuşa qalası üç əsas qapıya malik olmuşdur: - Gəncə (və ya Giləbörd), İrəvan (və ya Xələfli) və Ağoğlan (və ya Şuşakənd) qapısı.

Hər üç qapının adı tarixi mənbələrdə tez-tez xatırlanır, həmçinin onlar Şuşanın XIX əsrdə çəkilmiş bütün baş planlarında qeyd edilir. Hələ XIX əsrin 60-cı illərində bu qapılar Şuşanın ictimai həyatında mühüm rol oynayırdılar. Verilən məlumata görə, Ağoğlan və İrəvan qapıları ali şəxslərin keçidi və yük daşınması üçün, Gəncə qapısı isə arabaların keçməsi üçün nəzərdə tutulmuşdu.

Memarlar hələ qədim dövrlərdən şəhərlə tanışlığın onun qala divarlarından başladığını və şəhərin memarlığını məhz qala divarlarının müəyyən etdiyini nəzərə alırdılar. Buna görə də, memarlıq-kompozisiya həlli baxımında Şuşa qalasının əsas – şimal qapısı zəfər tağını xatırladır.

**Gəncə qapısı.** Pənahəli xanın hakimiyyəti dövründə inşa edilmişdir. Şuşa qalasının bu qapıdan çıxan yolu Gəncə şəhəri və Qarabağ xanlığının Çiləbörd mahalı ilə birləşdirirdi. Qarabağ xanlığının 1805-ci ildə Rusiya İmperiyasına ilhaq edilməsindən sonra Gəncənin Yelizavetpol adlandırılması (1804) ilə əlaqədar olaraq Gəncə qapısı da müvafiq olaraq bir müddət Yelizavetpol qapısı adlandırılmışdı. Şuşa qalasının Şimal qapısı – yəni Gəncə qapısı qala divarlarının ortasında – Ağoğlan və İrəvan qapılarının arasında yerləşir. Şuşa qalasının digər qapıları ilə müqayisədə Gəncə qapısı dövrümüzə daha yaxşı saxlanmış vəziyyətdə çatmışdır.




*Gəncə qapısı*

Şahmatvari və küknar düzülüşlü ağ və qara daşlardan hörülmüş divarlar, qalanın dərin oxvarı tağlı girişini effektiv şəkildə əhatə edir. Giriş üzərində dağılmış yalançı pəncərə çıxışlarının simmetrik izləri vardır. Onların arasında mazğallar və ya qala bacaları yerləşir.

**İrəvan qapısı.** İrəvan qapısı Şuşa qalasının üç əsas qapısından biri olmaqla, qalanın qərb tərəfində yerləşir. Bu qapıdan çıxan yol, Şuşa şəhərini Xəlfəli kəndi və İrəvan şəhərinə gedən yolla birləşdirirdi. İrəvan qapısı da Şuşa qalasının digər iki qapısı kimi, Şuşanın XIX əsrdə çəkilmiş bütün

baş planlarında qeyd edilmişdir. Gəncə qapısından fərqli olaraq İrəvan qapısı daha ənənəvi memarlıq üslubu tərzində həll edilmişdir. Oxvari tağa malik qapı iki tərəfdən simmetrik yerləşdirilmiş iki yaruslu döyüş qüllələri ilə möhkəmləndirilmişdir.

**Ağoğlan qapısı.** Şuşa qalasının şərq tərəfində yerləşir və şəhərin aşağı hissəsinə girişi təmin edir. Bu qapıdan çıxan yol Şuşa şəhərini Şuşakənd və Muxtar kəndləri ilə birləşdirərək Ağoğlan qəsrinə kimi uzanırdı. XIX əsrin bütün rusdilli mənbələrində Şuşanın cənub qapısı Ağoğlan qapısı kimi qeyd edilmişdir. Şuşa qalasını Ağoğlan qəsri ilə məhz bu qapıdan çıxan kəndlərarası yol birləşdirirdi. Bu qapının mənbələrdə xatırlanan digər bir adı isə Topxana qapısıdır. Qalanın şimal və qərb qapılarından fərqli olaraq şərqdə yerləşən Ağoğlan qapısı döyüş qüllələri ilə bərkidilməmiş və kifayət qədər sadə görünüşə malik olmuşdur. Giriş oxvari tağla həll olunmuşdur.



*Ağoğlan qapısı*

**İçqala**

Mənbələrin məlumatında görə Şuşa qalasının inşası ilə paralel qalanın içində Pənahəli xan üçün də qəsr inşa edilmişdir. Xan ailəsi üzvləri üçün inşa edilmiş sarayların hər biri üçün qəsr formalı qala divarlarının tikilməsi erkən dövrdə Şuşanın iç qalasının olmamasından xəbər verir. Şuşanın Rusiya işğalı dövrünə aid və tarixi qeyd edilməmiş baş planına əsasən qalanın sonrakı inkişaf dövründə qalanın Gəncə qapısı yaxınlığında ucalan hündür təpə üzərində geniş tikililər kompleksinə malik, qala divarları və bürclərlə əhatə olunmuş qaladaxili içqala inşa edilmişdir. Həmin qəsr daxilində Xan sarayları, o cümədən İbrahimxəlil xanın qızı Xurşidbanu Natəvanın sarayı yerləşir. 1847-ci ilin çertyojunda isə bütün İçqala kompleksi ümumi adla "Xanşi evi"adlandırılır.

İçqalanın xarici görünüşü haqqında ümumi təsəvvürü 1865-ci ildə Şuşada olmuş rus rəssam V.V. Vereşaginin çəkdiyi “Şuşada məhərrəmlik mərasimində dramatik tamaşanın sonu” adlı rəsm

verir. Həmin rəsmin arxa planında İçqala və onun tikililəri təsvir edilmişdir. Rəsmin çəkildiyi dövrdə İçqalanın bir çox tikililəri dağılmışdı. İçqala divarlarından dövrümüzə divar hissələri və bir dairəvi bürc qalmışdır.

Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust 1977-ci il tarixli qərarı ilə "Şuşa şəhəri Tarixi-Memarlıq qoruğu" elan edilmişdi. Bundan sonra Şuşa şəhərinin qoruq zonasına daxil edilən qala divarlarının və bürclərinin dövlət tərəfindən qorunmasına və bərpa edilməsinə başlanılmışdı.



*Şuşada dramatik tamaşanın sonu. Rəssam V. Vereşşagin. 1865.*
*(Arxa fonda Şuşa qalası və Xan sarayı görünür)*

1992-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri havadarlarının köməyi ilə Şuşa şəhərini işğal etdikdən sonra şəhərin bir çox tarixi-memarlıq abidələri, o cümlədən də qala divarlarının xeyli hissəsi dağıdılmışdır.

2020-ci il noyabrın 8-də qalib Azərbaycan əsgəri Şuşanı işğalçı ermənilərdən təmizlədi və qala divarlarında bayrağımızı yenidən dalğalandırdı.

"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2021-ci il Fərmanına əsasən şəhərin tarixi-memarlıq abidələrinin, o cümlədən də qala divarlarının dağıdılmış hissələrinin bərpasına başlanlılıb.

Əfsanəvi qala - Şuşa qalası yenidən öz tarixi görkəminə qovuşur.